# Düşmən Ağdamın, Ağcabədinin yaşayış məntəqələrini və Qubadlının ərazisini atəşə tutub













**Ermənistan silahlı qüvvələri oktyabrın 30-da səhər saatlarında Ağdam rayonunun yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub. Nəticədə sakinlərə məxsus yaşayış evlərinə, yardımçı binalara, təsərrüfatlara ciddi ziyan dəyib.**

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri düşmənin hədəfə aldığı kəndlərə gedərək, sakinlərlə həmsöhbət olub. Sarıçoban kənd sakini Məhərrəm Heydərov bildirib ki, döyüş meydanında müzəffər ordumuz qarşısında aciz qalan düşmən kəndləri, mülki şəxsləri artilleriya atəşinə tutur: "Səhər saat 6 radələri idi, evdə yatmışdıq. Güclü partlayış səsinə yuxudan oyandıq. Çölə çıxanda gördüm ki, su çəni deşilib. Məlum oldu ki, mərmi həyətimizə düşüb. Yaxınlıqda olan qardaşımın evinə və yardımçı tikilisinə daha çox ziyan dəyib. Düşmən istəyir ki, terror əməlləri ilə dinc sakinlərə ziyan vursun, bizi qorxutsun. Lakin bilsinlər ki, bu xain hərəkətləri ilə istəklərinə çata bilməyəcəklər".

Erməni hərbçilərinin ən çox atəşə tutduqları yaşayış məntəqələrindən biri Əhmədağalı kəndidir. Bu gün səhər saatlarında kənd növbəti dəfə düşmənin artilleriya atəşinin hədəfi olub. Düşmənin atəşi nəticəsində kənd sakini Məhəmməd Quliyevin də evinə və təsərrüfatına ziyan dəyib. O deyib: "Səhər kəndimiz atəşə tutuldu. Mərminin partlaması nəticəsində tövlədəki mal-qaradan biri tələf olub, 10-u yaralanıb. Tövlə dağılıb, evə ziyan dəyib".

Eyvaz Allahverdiyev düşmən təxribatlarının onları qorxutmadığını bildirib. "Düşmən demək olar ki, hər gün kəndimizi atəşə tutur. Bu gün səhər də kəndimiz atəşə tutuldu. Kəndin ərazisinə, ümumilikdə, 10-dan çox mərmi düşdü. Dağıntılar var. Lakin bu, bizi narahat etmir. Tək istəyimiz ordumuzun qələbə çalması, işğal altında olan torpaqlarımızın azad edilməsidir", - deyə o, qeyd edib.

❖ ❖ ❖

Oktyabrın 30-u səhər saatlarında Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulub.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri Ağcabədi rayonunun Hacılar kəndinə gedərək sakinlərlə həmsöhbət olub. Kənd sakini Elçin Abbasov bildirib ki, düşmənin artilleriya atəşi nəticəsində sakinlərə məxsus yaşayış evlərinə, yardımçı binalara, təsərrüfatlara ziyan dəyir. Lakin bu, sakinlərin əhval-ruhiyyəsinə təsir etmir. Hər kəs ordumuza güvənir, qələbənin yaxında olacağına inanır: "Hər gün kəndimiz atəşə tutulur. Bu gün səhər atılan mərmilər mənim, qardaşımın, bacımın və qonşumuzun evinə ziyan vurub. Lakin kəndimizdə həyat öz axarı ilə davam edir. Hər kəs öz işindədir".



Kamran İsmayılovun evinə və həyətinə bir neçə mərmi düşsə də, o, evini tərk etmir. "Bu günədək mənim həyətimə 3 mərmi düşüb. Səhər saatlarında mal-qaraya ot verən zaman kəndimiz yenə atəşə tutuldu. Mərmilərdən biri də mənim evimin üstünə düşərək partladı. Bütün bunlar ermənilərin vəhşiliyinin, barbarlığının göstəricisidir. Döyüş meydanında ordumuzun qarşısında tab gətirə bilmirlər. Əvəzinə dinc sakinləri atəşə tuturlar", - deyə o, qeyd edib.

Məhəbbət Abbasov isə deyib: "Bu gün səhər düşmənin atəşindən qardaşımın evinə də ziyan dəyib. Görürsünüz, mərmi həyətə düşüb, ev, yardımçı bina nə vəziyyətdədir. Çardaq aşıb, hasar uçub. Lakin düşmənin insanlığa sığmayan bu əməlləri bizi qorxutmur. Çünki biz öz torpağımızdayıq, kəndimizdəyik. Hər zaman ordumuzun arxasındayıq. Əgər ehtiyac olarsa, mən də bu yaşımda düşmənə qarşı savaşa hazıram".

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan rayonlarının ərazisini atəşə tutmaqda davam edirlər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda düşmən bölmələri Gorus rayonu tərəfdən Qubadlı rayonunun ərazisini artilleriya atəşinə tutur.

Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görüləcək.

Azərbaycan.- 2020.-31 oktyabr.- S.6.